# Uşaqlıq və gənclikdən səhnələrdə uğurlara bürünüb...



Aynur xanımla ilk tanışlığımız 15 il əvvələ aiddir. Öz "Əhsən" qrupumla Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin səsyazma studiyasında Faiq Babayevin rejissorluğu ilə bir-neçə melodiyanı yazırdıq. Nə lazım idisə yazdıq, qrup üzvləri getdi, tamamlama işləri zamanı nağara ifaçısı Heybət Babayevlə mən qaldıq. Bu zaman gənc bir qız operator otağına daxil oldu, ədəb-ərkanla salamlaşaraq bir tərəfdə əyləşdi...



*(Əvvəli ötən sayımızda)*

Aynur İsgəndərli 2012-ci ildə Bakıda vokalçılar arasında keçirilən Bülbül adına müsabiqənin də uğurlu iştirakçılarından biri olub. Türkiyənin İstanbul şəhərindəki Leyla Gencər adına vokalçıların Beynəlxalq müsabiqəsində də yüksək nailiyyətlər əldə edib.

Bu tədbirlərin hər birində onun sərgilədiyi unikal sənət münsiflər heyətini heyrətə gətirmişdi, teleradio əməkdaşları, mətbuat orqanı işçiləri onu əhatəyə alaraq yaxından tanış olmuş və müsahibələr götürüb yayımlamışdılar.

A.İsgəndərli 2005-2009-cu illərdə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində solo oxuma-estrada müğənnisi ixtisası üzrə təhsil alıb və Vaqif Gerayzadənin sinfini bitirib.

Aynur xanım atası Akif bəyin və Vaqif Gerayzadənin tövsiyəsi ilə ustad xanəndə, əməkdar müəllim Qəzənfər Abbasovdan dərs alaraq muğam janrının da sirlərini öyrənib. Bu, Aynur xanıma ondan ötrü lazımdır ki, o, oxuduğu milli vokal əsərlərinin ifasında muğama xas səs işlətmələrinə yer verərək zil oktavalarda sərbəst xırdalıqlar, boğazlar, incə nəfəslər, bər-bəzəklər, melizmlər işlədib hər mahnıya gözəlliklər və təsir gücü qataraq milli üslubu təqdim edə bilir. Həqiqətən bu yol, bu üslub, belə qayda onun ifasında öz yerini almaqda və gözəl səslənməkdədir. Əlbəttə, afərin, səd afərin!

Aynur İsgəndərli ikinci təhsili Bakı Musiqi Akademiyasının II kursuna qəbul olunaraq opera müğənnisi ixtisası üzrə təhsil alıb və buranı 2013-cü ildə bitirib. İxtisas müəllimi Hüseyn Əliyev olub. Aktyor sənətindən isə kursu Şəfiqə Məmmədova aparıb. Burada bir məsələyə də toxunaq, bu ondan ibarət idi ki, bəstəkar Oqtay Rəcəbov Aynur xanımla yaradıcılıq əlaqələrində idi. Müğənni onun əksər mahnılarını oxuyub və hamısı Azərbaycan radiosunun fonduna yazılıb. Həmin bəstəkarın mahnılarını oxuması Aynur xanımın karyerasının yüksəlməsində mühüm rol oynayıb. Bəstəkar səs və simli alətlər orkestri üçün yazdığı 15 dəqiqəlik bir əsərini də Aynur İsgəndərli ilə hazırlayırdı. Bəstəkar Aynur xanımın səs diapazonu və ifa imkanlarını nəzərə alaraq bu əsəri bəstələmişdi, O, iş daha uğurlu, sanballı olsun deyə Aynurla Hüseyn müəllimi tanış edir. Məqsəd bu idi ki, H.Əliyev Aynur xanımla məşqlər apararaq onu həmin əsər üçün hazırlasın. Hüseyn



müəllim Aynurun səsinin dəyərini, qeyri-adi, həm də geniş diapazonlu olduğunu bildirir və xanımın mütləq BMA-da təhsil almasını tövsiyə edir.

Haşiyə: "O.Rəcəbovun həmin əsəri simfonik orkestrin müşayiətilə Aynurun ifasında bəstəkarın Dövlət Filarmoniyasında keçirilən 75 illik yubileyində təqdim olunub və böyük maraq oyadıb. O.Rəcəbov ömrünün sonlarında "Atatürk" operası üzərində işləyirdi. Atatürkün qızı obrazında Aynur xanımı görmək istəyirdi. Lakin amansız əcəl bəstəkara bu işi sona yetirməyə imkan vermədi".

Aynur xanımın dediklərindən: "Çox istəyirdim, böyük arzum idi ki, Atatürkün anası rolunda çıxış edim. Lakin qismət olmadı".

A.İsgəndərli BMA-da təhsil alarkən bir sıra operalarda obrazlar da yaradıb. Nümunə kimi qeyd edək: "Traviata" (C.Verdi), Lakme (Leo Delit), Gecə şahzadəsi (Motsart), Gülçöhrə (Ü.Hacıbəyli "Arşın mal alan"), "Sevil" (F.Əmirov). Aynur xanım bu rolları BMA-nın opera studiyasında oynayıb. O, həmin studiyanın solisti də olub.

Özünə qarşı çox tələbkar olan A.İsgəndərli təhsilini daha da artırıb və 2015-2017-ci illərdə ADMİU-da magistratura üzrə oxuyub. Müdafiə mövzuşu "Azərbaycan vokal məktəbinin inkişafında Bülbülün rolu" idi.

Bu yorulmaz xanımın həvəsinə, gücünə, məsuliyyətinə baxın. O, 2019-cu ildə BMA-a doktorantlıq üzrə daxil olub. Belə elmi mövzu üzərində işləyir: "Azərbaycan vokal sənətinin inkişafında Firəngiz Əhmədovanın rolu". Elmi rəhbəri Nuridə İsmayılzadədir.

Aynur İsgəndərli sıradan bir müğənni deyil, dövlət sənətçisidir. Çalışqan, hünərvər, zəhmətdən yorulmayan, öz sənətindən böyük zövq alaraq pərvazlanan bu xanım 2013-cü ildən 2020-ci ilə qədər Azərbaycan Televiziya və Radio Verilişləri QSC-nin solisti olub. 2013-cü ildən R.Behbudov adına Dövlət Mahnı Teatrının, 2014-cü ildən Müdafiə Nazirliyinin Əlahiddə Nümunəvi Hərbi Orkestrinin solisti kimi çalışmaqda, səsini, nəfəsini, bir-birindən gözəl nəğməsini insanlara bəxş etməkdə və musiqisevərlərə zövq aşılamaqdadır..

A.İsgəndərli illərdir ki, Azərbaycan tele-radiosu ilə geniş yaradıcılıq əlaqəsindədir. Radio fondunda onun 40-dan artıq ifaları qorunur və səsləndirilir. AzTV-də onun oxuduğu mahnıların çəkilişləri qorunmaqda və yayımlanmaqdadır. O, S.Rüstəmov



adına xalq çalğı alətləri orkestrinin, "Dan ulduzu" və digər ansamblların, estrada-simfonik orkestrin müşayiətilə oxuyub. Müxtəlif səslənməyə malik bədii kollektivlərlə birgə çalışmaq özü də böyük məsuliyyət və məharət tələb edir.

Aynur İsgəndərli böyük istedad, yüksək sənət eşqi, məlahətli, dəyərli, tutumlu səsi ilə seçilən və sevilən bir müğənni kimi göz önündədir. Onun səsi koleratura soprano olaraq diapazonu dörd oktavadır. Aşağı registrdə onun sinə səsindən ustalıqla istifadəsi də sənət xüsusiyyətlərinə dəlalət edir.

Uca Allah ona qənirsiz gözəllik, səhnə görünüşü bəxş edib. Adını da doğruldur. Ayın nuru daim üzündə, çöhrəsində təcəlla edir, Ayın nuru pak, təmiz qəlbini işıqlandırır.

O, yüksək təhsil gördüyü üçün səsdən bacarıqla istifadəni çox yaxşı bilir və əla səhnə mədəniyyətinə malikdir. Bu savadlı, kamil bilikli, elmli müğənninin yüksək mədəniyyəti və kübarlığı hər an sənətində özünü büruzə verir.

Bəli, bu xüsusiyyətləri onun ifa etdiyi mahnılarda cilalanaraq formalaşmış halda zəngin repertuarında daim özünü təsdiq edir. Artıq çoxdandır ki, vokal sənətində o da bir nümunədir. Yüksək mədəniyyəti, əxlaqı, insani münasibətləri, sənətinə dərin sevgisi, məsuliyyətlə yanaşması, özünü, sözünü bilməsi, daim öz işi üzərində işləməsi onu sənət aləmində yüksəldərək geniş və çoxsaylı tamaşaçı auditoriyasına sevdirməkdədir.

Hə, bu tam doğrudur, Aynur xanım sevilən populyar müğənnilərin sırasında boy verib ucalaraq sənət dünyasında və cəmiyyətdə halal sevgisini qazanmaqdadır. Onun sənət fəaliyyəti adi, sadə deyil, həddən artıq zəngin və çoxşaxəlidir. O, uşaqlıqdan və gənclikdən indiyə qədər səhnələrdə, səsini milyonlarla tamaşaçılara ərməğan etməkdədir. Əziz oxucular, bu məqaləni diqqətlə oxusanız fikrimizin doğruluğunu müşahidə edəcəksiniz.

Aynur xanımın repertuarında Tofiq Quliyev, Cahangir Cahangirov, Şəfiqə Axundova, Ələkbər Tağıyev, Elza İbrahimova, Oqtay Rəcəbov, Tahir Əkbər, Eldar Həsənov, Novruz Aslan, Dilşad Əliyeva və başqalarının mahnıları özünə yer tutur. O, dövlət tədbirlərində vətənpərvər ruhlu mahnılara da yer ayırır. Onu dinləyirəm: "Əhməd Cavadın sözlərinə Üzeyir Hacıbəylinin bəstələdiyi çox məşhur "Çırpınırdı Qara dəniz" adlı mahnı mənim daimi repertuarımda olaraq xüsusi örfəm daşıyır. Xarici ölkələrə qastrol səfərlərimdə bu əsəri mütləq mənada və böyük məhəbbətlə oxuyuram".

İllərdir ki, Aynur İsgəndərlinin H.Əliyev sarayında xalq şairlərinin, görkəmli bəstəkarların yaradıcılıq gecələri ilə bağlı keçirilən konsertlərdə müxtəlif müğənnilərlə yanaşı Aynur İsgəndərlinin də gözəl, bizə çox doğma səsini eşidir və oxuduğu bir-birindən uğurlu mahnıları dinləyərək dərin zövq alırıq. O, hər dəfə "Dan ulduzu" və ya digər yaradıcı musiqi kollektivlərinin müşayiətilə canlı ifalara yer verir. Səsi həmişə yaxşı işləyir, formada olur, təqdim etdiyi hər bir mahnını zilli, bəmli, aydın, dolğun şəkildə və yüksək peşəkarlıq nümayiş etdirərək tamaşaçılara bəxş edir. Onun səsi həqiqətən də nadir səslərdəndir. Səs diapozonu geniş olan bu müğənni səhnəyə arxayın çıxır və hər dəfə əsl sənət sərgiləyərək alqışlar qazanır.

Aynur xanımın genində musiqi istedadının güclü olması təsadüfi deyil. Yazının əvvəlində onun şəcərə xəttində sənət adamlarının olmasını qeyd etmişik. Ata babası Kamal İsgəndərov (1927-2002) Akademik Opera və Balet Teatrında rejissor olaraq zəngin yaradıcılıq yolu keçib. Ulu babası, Azərbaycan SSR-in əməkdar artisti (1940) Qulam İsgəndərov (1901-1975) adını qeyd etdiyimiz teatrın 1930-cu ildən solisti kimi çalışıb, milli operalar və operettalarda da bir-birindən uğurlu obrazlar yaradıb. Nümunə olaraq göstəririk: "Leyli və Məcnun"da Məcnunun atası, "Şah İsmayıl"da Rəmmal, "Əsli və Kərəm"də şah, "Arşın mal alan"-da Vəli, "Koroğlu"da Təlxək, "Sevil"-də Atakişi, "Durna"da Dursun. Qulam İsgəndərov operalarda Bülbül ilə birlikdə də çıxış edib.

Qulamın atası Məşədi Kazım İsgəndərov mşhur xanəndə idi. O, muğamları dərindən bilərək oxuyardı. Yazıçı Ə.Haqverdiyevin 1902-ci ildə Bakıda H.Z.Tağıyevin teatr binasında təşkil etdiyi ilk Şərq konsertlərində Səyid Mirbabayev (1867-1953), Cabbar Qarayağdıoğlu (1861-1944) və Kazım İsgəndərov da oxumuşdu. O, az yaşayıb, 1914-cü ildə dünyasını dəyişib.

Ailənin böyük qızı barədə də məlumat verək. Aygün İsgəndərli 1983-cü il mayın 14-də dünyaya gəlib. 5 saylı ümumtəhsil məktəbi bitirib. Lap kiçik yaşlardan istedadı üzə çıxıb, rəqs, edib, şənlənib, oxuyub. Bacısı Aynurla Ələkbər əminin verilişlərində müntəzəm çıxış edib. Onun əla və diapazonlu səsi var. Ata-ana onun musiqi tərbiyəsi ilə ciddi məşğul olub. Xarici Dillər Universitetini ingilis dili ixtisası üzrə əla qiymətlərlə bitirib. Xarici ölkədə inter dizayner ixtisası üzrə təhsil alıb. 2023-cü ildə Rəssamlıq Akademiyasına qəbul olunub. Hazırda II kursdadır. Bir-birindən maraqlı əsərləri mütəxəssislərin diqqətini cəlb etməkdədir. Yaratdığı rəsmləri dəfələrlə sərgilərdə nümaiş etdirilib.

Aynur İsgəndərli istər ata, istərsə də ana tərəfdən istedadlı insanların, musiqi xadimlərinin nəsil davamçısıdır. Göründüyü kimi o, öz şəcərə xəttinin layiqli davamçısı kimi sənətdə özünə geniş yol açaraq irəliləməkdə və daim inkişafdadır. Maşallah, təki həmişə belə oslun. Görək, bilək, agah olaraq sevinək. Onun elmi müdafiəsini səbrsizliklə gözləyirik. Uğurlar !

**Əhsən RƏHMANLI**
**Tədqiqatçı, Sənətşünaslıq üzrə fəlsəfə doktoru**